# Şanlı qələbəmizə fərqli münasibətlər həqiqətin üzərinə kölgə sala bilməz



***Bu sətirlərdə erməni faşizmi üzərində qazandığımız şanlı qələbəmizə sevinənlər və onu bəyənməyənlər haqqında bəzi mülahizələri qələmə almaq istəyirəm. Nə qədər qəribə olsa da, bu faktı qınayanlar Azərbaycandan və Ermənistandan çox-çox uzaqda yaşayanlar – daha çox isə avropalılardır. Ona görə də yazını Avropanın ən tanınmış yaradıcı fikir sahiblərindən olan Viktor Hüqonun məşhur bir ifadəsi ilə başlamaq istəyirəm: "Həqiqətin və azadlığın gücü ondadır ki, hətta sən ziddinə gedəndə belə onlara xidmət etmiş olursan". Bu baxımdan, bəzi dairələrin müasir Azərbaycan həqiqətlərinə qarşı getməsi son nəticədə bizim haqq işimizə xidmət göstərilməsinə çevrilir.***

> ***Regional ölkələr bu bəyanatı dəstəkləyiblər. Bütün qonşularımız bu bəyanata dəstəyini ifadə ediblər. Qonşularımızdan ikisi – Rusiya və Türkiyə azərbaycanlıların və ermənilərin təhlükəsizliyini təmin edəcək əməliyyatlarda iştirak edəcək.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Fakt ondan ibarətdir ki, Azərbaycan dövlətinin və şanlı ordumuzun faşizmə qarşı başladığı ədalətli mübarizənin davam etdiyi 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan bizə müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. O zaman dövlət başçımız deyirdi ki, torpaqlarımızı 30 il işğal altında saxlayan mənfur düşmən bizim şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir ki, filan vaxt Azərbaycan ərazilərini tərk edirik. Əgər elə olsaydı, o zaman döyüşlər dərhal dayandırılacaqdı. Şərtlərimizi qəbul etmədilər və döyüşlər düşmən dövlətin kapitulyasiya sənədinə imza atmasınadək davam etdi.

Nəticə göz qabağındadır. Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Dövlət başçımızın dediyi kimi, bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Bu qələbə həm də beynəlxalq aləmdəki bədxahlarımıza başa saldı ki, Azərbaycan dövlətinin və xalqımızın əsəbləri ilə oynamağın sonu Nikol Paşinyanın taleyi kimi olur.

Maraqlı olan bir məqama diqqət yönəltmək istərdik. Müharibə başa çatandan, Azərbaycanın ərazi bütövlüyün bərpasına zəmanət verən üçtərəfli sənədin imzalanmasından, Ermənistan rəhbərliyinin kapitulyasiya faktını qəbul etməsindən sonra Avropanın bəzi yerlərindən xəbər gəlir ki, bu nəticə etibarsızdır. Necə yəni, müharibəni yenidən başlayaqmı? Qəribə, əcaib və absurd olan bu qənaətin müəllifləri unudurlar ki, məlum nəticəni imzalayan dövlət başçıları arasında Vladimir Putin və İlham Əliyev kimi beynəlxalq miqyasda söz sahibi olan liderlər də vardır.

Qəzetimizin ötən saylarında erməni lobbisinin təlimatları və Fransadakı erməni diasporunun maddi vəsaiti hesabına danışan Paris meriyasının məlum – mənasız və məntiqsiz proqnozları barədə söz açmışdıq. Guya Dağlıq Qarabağ respublikasını tanıyacaqlar. Hələ də dərk edə bilmirlər ki, onların tanımaq istədiyi həmin respublikanın rəhbərliyi də, "ordusu" da Azərbaycan ərazilərindən qovulmuşdur. Qoy tanısınlar. Harada istəyirlər, tanınsınlar, Azərbaycanda fəaliyyət göstərməyəcəklər.

Avropa ölkələrinin təfəkkürdənkənar addımları bununla qurtarsaydı, nə vardı ki? Sən demə daha böyük rüsvayçılıq hələ irəlidə imiş. Belə ki, Niderland Krallığının rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin başa çatmasını elan edən məlum bəyanatı alqışlasa da, bu ölkənin parlamenti həmin sənədi inkar edən qərar qəbul edib. Görünür bu adamlar həqiqətən demokratiyanı anarxiya ilə qarışıq salırlar.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edib. Diplomatı yeni vəzifə münasibətilə təbrik edən dövlət başçımız məqamdan istifadə edərək həmin ölkədə qeydə alınmış anti-Azərbaycan məzmunlu faktın əməkdaşlığımızın səviyyəsinə yaraşmadığını da söyləyib: "Mənə məlumat verildi ki, ölkənizin parlamenti Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan, Azərbaycanın əleyhinə və həmçinin Türkiyənin əleyhinə olan qərar qəbul etdi. Mənə köməkçim məlumat verdi ki, müzakirələr zamanı Niderlandın xarici işlər naziri daha da balanslaşdırılmış yanaşma ilə çıxış etdi. Odur ki, biz bunu qiymətləndiririk. Lakin parlamentin belə balanslaşdırılmamış və ədalətsiz bir qərarı qəbul etməsi faktı əlbəttə ki, bizə daha yaxın əlaqələr qurmağa kömək etməyəcək".

Dövlət başçımız bu qərarın qəbul olunması faktını nəzərə alaraq xatırladıb ki, sentyabrın 27-dən başlanan hərbi əməliyyatlara görə bütün məsuliyyət ermənistan rəhbərliyinin üzərinə düşür. Çünki həmin gün Ermənistan bizə hücum etmişdi. Bütün dünyanın gözünün qabağında olan faktdır ki, biz özümüzü müdafiə edirdik və bunun nəticəsində biz beynəlxalq hüququn norma və prinsiplərinə əsasən və tarixə əsasən özümüzə məxsus olan əraziləri azad edə bildik.

Dövlət başçımız haqlı olaraq söyləyib ki, bizim mübarizəmiz azadlıq, ərazilərin azad edilməsi uğrunda mübarizə idi və mübarizəmiz böyük hərbi və siyasi uğurla başa çatdı. Ancaq Avropanın müxtəlif ölkələrindən tamamilə əsassız olan iradlar, qınamalar və hətta iddialar eşidirik. Hamı bilir ki, noyabrın 10-da Moskvadan yayılan bəyanatla müharibəyə son qoyulmuşdur: "Buna görə mənə çox qəribə gəldi ki, bundan sonra -- Ermənistanın kapitulyasiyası olan bu bəyanatı onun özü imzaladıqdan sonra regionumuzdan uzaqda yerləşən bir ölkədə belə bir qərar qəbul edildi".

Doğrudan da absurddur. Axı regionun bütün ölkələri bu bəyanatı dəstəkləyiblər. Azərbaycanın və Ermənistanın qonşularından ikisi -- Rusiya və Türkiyə azərbaycanlıların və ermənilərin təhlükəsizliyini təmin edəcək əməliyyatlarda iştirak edəcəklər. Üstəlik, ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının bu bəyanatla bağlı şərhləri də yayılmışdır. Yəni indi – regiondakı vəziyyətin sabitləşməyə doğru getdiyi günlərdə avropalı parlamentarilərin bu şəkildə qərar qəbul etməsi nəinki anlaşılmaz, hətta qəbuledilməzdir.

Bu zaman xüsusilə qabardılmalı məsələlərdən biri də Azərbaycanın Avropa qurumları ilə səmərəli və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq təcrübəsinin olmasıdır. Dövlət başçımızın xatırlatdığı kimi, Avropa Komissiyası və Azərbaycanın çox geniş əməkdaşlıq gündəliyi var: "İki il əvvəl biz Brüsseldə Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını tam dəstəkləyən "Tərəfdaşlıq prioritetləri" sənədini parafladıq. Azərbaycan öz ərazisində döyüşürdü, öz ərazi bütövlüyünü bərpa edirdi və bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Avropa İttifaqı ilə Azərbaycan tərəfindən paraflanmış sənədə uyğundur".

Səfir Paulin Eizemanın vəziyyəti aydınlaşdırmaq məqsədi ilə söylədiyi fikirlər bizim yuxarıda Viktor Hüqodan gətirdiyimiz sitatın bugünkü Avropa üçün daha çox keçərli olduğunu sübut edirdi: "Mənim hökumətimin mövqeyi çox balanslaşdırılmışdır. Mən bunu yüksək qiymətləndirirəm. Bu, təhlilin, müzakirələrin və yaxşı dialoqun nəticəsində olub. Mən bir daha vurğulamaq istərdim ki, mənim hökumətimin mövqeyi Avropa İttifaqının mövqeyinə çox uyğundur və çox balanslaşdırılmışdır. Biz münaqişəni izlədik, baş verənləri gördük və münaqişənin hər iki tərəfdə nələrə səbəb olduğu bizi hər zaman çox narahat edir".

Məlum oldu ki, Niderlandın idarəetmə sistemində hökumətin mövqeyi ilə parlamentin mövqeyi arasında fərq ola bilir. Ona görə də ötən həftə nazirlə parlament arasında keçirilmiş sonuncu müzakirədə bu məsələlər də qaldırılmışdı. Nazir həm yazılı, həm də şifahi şəkildə israrla bildirib ki, qaldırılan bu məsələlər mənim hökumətimin mövqeyinə uyğun deyil: " Beləliklə, Azərbaycana qarşı sanksiyalar və bu kimi məsələlər qətiyyən gündəlikdə deyil".

Bəli, Azərbaycan öz haqq işini bütün dünyaya qəbul etdirmək üçün hələ xeyli yol qət eləməli olacaq. Noyabrın 16-da həmin yolların ən düzününün, ən dürüstünün və vacibinin başlanğıcına şahidlik etdik. Belə ki, həmin gün Prezident İlham Əliyevin göstərişi ilə Füzuli rayonundan Şuşa şəhərinə çəkilən yolun inşasına start verildi. Dövlət başçımız orada dedi: "İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***